Avropa İttifaqı

RİİB Regional İnkişaf İctimai Birliyi

# AYLIQ BÜLLETEN 01.10.2019



# İNKLÜZİV TƏHSİL NƏDİR?

İnklüziv təhsilin sosial, pedaqoji, hüquqi və s. aspektlərdən universal tərifi aşağıdakı kimidir:

***"İnklüziv təhsil əlilliyi olan və olmayan, zəngin və yoxsul uşaqların, eləcə də cinsi, etnik, dini və mədəni statusundan asılı olmayaraq bütün uşaqların öz icmaları daxilində onların potensialını aşkara çıxara bilən məktəblərdə təhsil almasıdır" (UNICEF, 2013)***




İnklüziv təhsilin mahiyyəti ilə bağlı bir çox yanlış təsəvvürlər mövcuddur. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya əsasən, inklüziv təhsil aşağıdakıları ehtiva edir:

- Əlilliyi olan şəxslərin ümumtəhsil sistemindən kənarlaşdırılmamasını təmin etmək;
- Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;
- Fərdi ehtiyacları nəzərə alaraq ağlabatan uyğunlaşdırmalar aparmaq;
- Əlilliyi olan şəxslərin ümumtəhsil sistemində zəruri dəstəyi almasına təminat vermək;
- İnklüzivliyin tam şəkildə təmin olunması hədəfinə uyğun olaraq, akademik və sosial inkişafa maksimum şərait yaradan mühitlərdə fərdi ehtiyaclara uyğunlaşdırılmış dəstək tədbirlərini təmin etmək;
- Əlilliyi olan uşaqları digər uşaqlardan ayıraraq xüsusi məktəblərdə seqreqasiyaya məruz qoymamaq;

## HÜQUQİ SƏNƏDLƏR

*İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Bir sıra beynəlxalq konvesiyalar, həmçinin milli qanunvericilik bir sıra ölkələrdə inklüziv təhsilin tətbiqini təmin edir. Ölkəmizdə inklüziv təhsili tənzimləyən normativ hüquqi sənədlər aşağıdakılardır:*

- İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1948
- BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası, 1989
- BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası, 2006
- Azərbaycan Respublikasının Konstitusiyası, 1995
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009
- "2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"

**Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz**

# ƏLİLLİK NƏDİR VƏ ƏLİLLİYİ OLAN ŞƏXSLƏR KİMLƏRDİR?

***“Əlilliyi olan insanların hüquqları haqqında” Konvensiyanın 1-ci maddəsinə istinadən, “Əlilliyi olan şəxslər müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər əsasda cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlardır.”***

2018-ci ildə UNİCEF-in sifarişi ilə əlilliyi olan uşaqların bilik səviyyələri, onlara olan münasibətlər və təcrübələr ilə bağlı aparılan tədqiqatın nəticələri aşağıdakı kimi olmuşdur:

- Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı dəqiq məlumatları əldə etmək çətindir.
- Azərbaycanda əhalinin 5.6%-ni əlilliyi olan şəxslər təşkil edir. Onların 2.6%-i uşaqlardır. Bu göstəricilər beynəlxalq səviyyədə qəbul olunan hesablama göstəriciləri ilə müqayisədə aşağıdır. Belə ki, beynəlxalq səviyyədə qəbul olunan hesablamaya əsasən bu göstərici ümumi əhalinin (orta və ağır dərəcəli əlilliyi olan) 15%-ə qədər, uşaqların xüsusi çəkisi isə 5.1%-ə qədər ola bilər.
- Məlumatların qeyri-dəqiqliyi məsələsi qismən əlilliyi olan şəxslərin müəyyənləşdirilmə sistemi ilə bağlıdır. Belə ki, bu sistem əlilliyin tibbi modelinə əsaslanır.
- Bəzi valideynlər sosial damğalama ilə əlaqədar olaraq diaqnostikadan çəkinirlər.

2015-ci il üzrə Qlobal Monitorinq Hesabatının əsas nəticələrinə görə, aşağı orta gəlirli ölkələrdə əlilliyi olan uşaqlara dair əksər məlumatlar mövcud məlumatların keyfiyyətinin aşağı olması səbəbindən təqribi hesablamalara əsaslanır.

Bunun əsas səbəblərindən biri odur ki, əksər təsnifat sistemləri əlilliyin tibbi modelinə əsaslanan qiymətləndirmə proseduruna söykənmişdir. Beynəlxalq tendensiya Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından istifadədir. Burada qiymətləndirmə zamanı orqanizmin funksiyaları və quruluşu, fəaliyyətlər, iştirak və ətraf mühit amilləri nəzərə alınır.

Bəzi ölkələrdə əlilliyi olan uşaqların 90%-ə yaxını məktəbə getmir. Əlil olmaq uşağın heç vaxt məktəbə getməmək ehtimalını iki dəfədən çox artırır. Əlilliyi olan uşaqların məktəbi yarımçıq tərk etmək və ya ayrı-seçkiliklə üzləşmək ehtimalları yüksəkdir. Son onilliklər ərzində dünyada inklüziv təhsilə yönələn nümunəvi təcrübələr yaranmışdır. BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları” haqqında konvensiyası inklüziv təhsilin dəstəklənməsi üçün müfəssəl istiqamət vermiş, bir çox ölkələr öz siyasətlərini inklüziv təhsilin təməl prinsiplərinə uyğunlaşdırmış və bu proses davamlı xarakter almışdır. Lakin bu müsbət proseslərə baxmayaraq, hələ də çoxsaylı çətinliklər qalır. Əlilliyi olan uşaqlar üçün əsas maneə insanların əlilliyə qarşı mənfi münasibətidir. Bu isə əlilliyi olan uşaqların davamlı olaraq, ayrı-seçkiliyə məruz qalması və təcrid olunması ilə nəticələnir.










Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz

Avropa İttifaqı

RİİB Regional İnkişaf İctimai Birliyi

# İNKLÜZİV TƏHSİLDƏ MÜƏLLİM HAZIRLIĞININ ROLU BÖYÜKDÜR

Tədqiqatlar göstərir ki, təhsil sistemininin yüksək səviyyədə inkişafında müəllimlərin mühüm rolu vardır. Belə ki, "təhsil sisteminin keyfiyyəti müəllim və məktəb rəhbərliyinin səriştəsi ilə düz mütənasibdir" (ATƏT, 2011, s. 235)

"Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində aparılan tədqiqatlar da oxşar nəticəni əks etdirir. Belə ki, aparılmış tədqiqatlar nəticəsində müəllimlərin inklüziv təhsil sahəsində ümumi hazırlıq səviyyəsinin aşağı olduğu və müəllimlərin əlilliyi olan uşaqlara tədrislə bağlı xüsusi yanaşmaların mövcud olmasına dair yanlış təsəvvürlərin olduğu üzə çıxmışdır (İnklüziv təhsilə dair ümumi anlayış, pedaqoji kadrların peşəkar hazırlığı və mövcud resurslar haqqında sosial tədqiqat, 2018).

Müəllim hazırlığının keyfiyyətinin artırılması ilkin pedaqoji və əlavə təhsil səviyyələrində müəllim inkişafı üzrə təhsil proqramlarının keyfiyyəti ilə sıx bağlıdır.

Layihə çərçivəsində UNİCEF-lə birgə əməkdaşlıq sahəsində hazırlanmış inklüziv təhsil üzrə müəllim inkişafı proqramları Azərbaycanda müəllimlərin inklüziv sinif otaqlarında dərs keçmək üçün potensiallar və səriştələrinin artırılmasına xidmət edir.

Qeyd olunan proqramlar əsasında ali məktəb və orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün təlimlər həyata keçirilib.

Bakı şəhəri, Şəki, Quba, Ağcabədi, Şamaxı və Cəlilabad rayonlarında iyun-avqust ayları ərzində keçirilən ixtisasartırma təlimlərində 675 ibtidai sinif və 231 ali məktəb müəllimləri iştirak edib.

### HƏR İL 3 DEKABR BÜTÜN DÜNYADA BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜ KİMİ QEYD OLUNUR

1992-ci il oktyabrın 14-də "Əlillər Onilliyi"nin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul edib. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır. Hazırda dünya əhalisinin 15%-ni (təxminin 1 milyard insan) hər hansı əlillik növü olan insan təşkil edir. Dünya üzrə ümumi sayın təxminən 1/5-ni və ya təxminən 110-190 milyon insan ağır əlillik formaları olan insanlardır (Dünya Bankı, 2019).

Əlilliyi olan insanlar sosial-iqtisadi təsirlərə - təhsildən təcrid olunma, tibbi xidmətlərin qeyri-adekvatlığı, işsizlik və yoxsulluq kimi risk faktorlarına daha çox məruz qalan həssas əhali kəsimidir.



***"2018-ci ildə Azərbaycanda Beynəlxalq Əlillər Günü münasibətilə Avropa İttifaqı (Aİ), Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), UNİCEF və Asan Radio ilə birgə əməkdaşlıq çərçivəsində "Fərqliyik, bərabərik" adlı film hazırlanıb. Filmin əsas mesajı əlilliyi olan şəxslərin cəmiyyətin bərabərhüquqlu üzvü olması və inklüziv təhsilin əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya üçün ən uğurlu vasitə olması ideyası ətrafında qurulmuşdur.***

*Filmi izləmək üçün link:*
https://www.youtube.com/watch?v=IsQ_2Z8LHR8&t=3s

## Əlavə məlumat almaq üçün əlaqə vasitələri:

+99412 505 01 50 | info@ie-rt.az | @inkluzivtehsilAzerbaycan | @inkluzivtehsil

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz